Quran hərflərinin yazılışı

Axırda	Ortada	Başda	Hərf
ـا	ـئـ	ا	اء
ـب	ـبـ	بـ	ب
ـت	ـتـ	تـ	ت
ـث	ـثـ	ثـ	ث
ـج	ـجـ	جـ	ج
ـح	ـحـ	حـ	ح
ـخ	ـخـ	خـ	خ
ـد	ـدـ	د	د
ـذ	ـذـ	ذ	ذ
ـر	ـرـ	ر	ر
ـز	ـزـ	ز	ز
ـس	ـسـ	سـ	س
ـش	ـشـ	شـ	ش
ـص	ـصـ	صـ	ص
ـض	ـضـ	ضـ	ض

Axırda	Ortada	Başda	Hərf
ـط	ـطـ	طـ	ط
ـظ	ـظـ	ظـ	ظ
ـع	ـعـ	عـ	ع
ـغ	ـغـ	غـ	غ
ـف	ـفـ	فـ	ف
ـق	ـقـ	قـ	ق
ـك	ـكـ	كـ	ك
ـل	ـلـ	لـ	ل
ـم	ـمـ	مـ	م
ـن	ـنـ	نـ	ن
ـو	ـو	و	و
ـه	ـهـ	هـ	هـ
ـلا	ـلا	لا	لا
ـي	ـيـ	يـ	ي

əlifbanın hərflərini öyrənirkən mütləq bir bir biləndən hərflərin tələffüz şəklini də öyrənmək lazımdır.

Hərəkələr

Quran əlifbasında sait səslər yoxdur. Bu səsləri çıxartmaq üçün müəyyən işarələrdən , yəni hərəkələrdən istifadə olunur.

Bir öncəki səhifəmizdə hərflərlə tanış olduq. İndi isə sırasıyla hərəkələrdən başlayarq cəzim, şəddə, tənvin, məd hərfləri, müəyyənlik artiklı, hurufu-mukatta, və "hə" hərfinin oxunuşunu öyrənəcəyik.

Hərəkələrin üç növü vardır. Bunlar "fəthə", "kəsrə" və "zammə" olaraq adlandırılır. Quran əlifbasında Ana dilimizdəki (a, ə, i, u) saitlərinin yerini məhz bu hərəkələr alır.

Fəthə (•••••)

Fəthə: hərfin üstnə qoyulan, sola meyilli əyri qısa xətdir. Üzərinə qoyulan hərf incə hərfdirsə "ə", qalın hərfdirsə də "a" səsini verir.

Kəsrə(•••••)

Kəsrə: hərflərin alt tərəfinə qoyulan solla meyilli qısa xətdir. Aid olduğu hərfə "i" səsi verir.

Zammə (•••••)

Zammə “vav” hərfinə bənzəyir və hərfin üstünə qoyulur. Üzərinə qoyulduğu hərfə "u" səsi verir.

fəthə(َ....)	kəsrə (ِ....)	zammə(ُ....)
fəthə: "ə" və "a" səsini verir	kəsrə: "i" səsini verir	zammə: "u" səsini verir

جَ جِ جُ	ثَ ثِ ثُ	تَ تِ تُ	بَ بِ بُ	اَ اِ اُ
cə ci cu	sə si su	tə ti tu	bə bi bu	ə i u
رَ رِ رُ	ذَ ذِ ذُ	دَ دِ دُ	خَ خِ خُ	حَ حِ حُ
ra ri ru	zə zi zu	də di du	xa xi xu	hə hi hu
ضَ ضِ ضُ	صَ صِ صُ	شَ شِ شُ	س سِ سُ	زَ زِ زُ
da di du	sa si su	şə şi şu	sə si su	zə zi zu
فَ فِ فُ	غَ غِ غُ	عَ عِ عُ	ظَ ظِ ظُ	طَ طِ طُ
fə fi fu	ğa ği ğu	ə i u	za zi zu	da di du
نَ نِ نُ	مَ مِ مُ	لَ لِ لُ	كَ كِ كُ	قَ قِ قُ
nə ni nu	mə mi mu	lə li lu	kə ki ku	qa qi qu
		يَ يِ يُ	هَ هِ هُ	وَ وِ وُ
		yə yi yu	hə hi hu	və vi vu

Bir öncəki səhifədə qalın oxunan hərflər qırmızı rəngdə verilmişdir

cəzm (·····ْ)

إِذْ	لَمْ	كُنْ	هَلْ	مَنْ
نِعْمَ	اَيْنَ	وَقَدْ	سَوْفَ	بِكُمْ
وَجَدْتُمْ	تَرْهَقُ	عِنْدَكُمْ	يُؤْخَذُ	اُنْزِلَ

Cəzm (ْ), hərflərin üstünə qoyulur. Üzərinə qoyulan hərfi öndəki hərfə birləşdirərək səssiz oxudar. Üstündə cəzm işarəti olan hərflərə "sakin hərf" deyirlir.

şəddə (·····ّ)

رَسَّ	دَقَّ	رُبَّ	وَدَّ	اَنَّ
نُزِّلَ	وَرَّقَ	رَدَّدَ	دُوِّنَ	اَدَّبَ
رَبَّكَ	رُجَّتْ	لَعَلَّ	تَبَّتْ	تَقَبَّلَ

şəddə (····ّ) hərflərin üstünə qoyulur və hərfi iki dəfə oxudur

Şəddə, hərfin üstündə heç vaxt tək başına olmaz; hər zaman bir hərəkə ilə birlikdə istifadə olunur

TƏNVİN (ً ٍ ٌ)

Tənvin, kəlmənin son hərfinin hərəkəsini "nun"ladan bir hərəkədir. Ancaq kəlimələrin son hərfinin üstünə qoyulur.

İki fəthə üst-üstə yazıldığında qalın hərflərdə "an", incə hərflərdə isə "ən" kimi oxunur.

İki kəsrə alt-alta hərfin altında yazıldığında "in" kimi oxunur.

İki zammə yan-yana yaz yazıldığında isə "un" kimi oxunur.

رَشَداً	قَوْلاً	هُزُواً	فَوْجاً	رَباًّ	fəthə tənvin
شَقاًّ	فَتْحاً	رِقاًّ	أَرْضاً	مِصْراً	
أُذُنٍ	رَبْوٍ	بَسٍّ	غِلٍّ	كُلٍّ	kəsrə tənvin
خَلْقٍ	عَشْرٍ	بَخٍ	نَهْرٍ	أَرْضٍ	
مَوْجٌ	مَسْجِدٌ	عَلِيٌّ	شَمْسٌ	عَفُوٌّ	zəmmə tənvin
خَيْرٌ	رَوْضٌ	سُرُرٌ	طُرُقٌ	صِرٌّ	

MƏD HƏRFLƏRİ

MƏD (uzatma) hərfləri, kəlmə içində özündən öncəki hərfi uzadaraq oxudan hərfdir. Məd üç ədəd məd hərfi vardır. "Əlif"(ا), "Vav (و) və "Yə" (ي)
Əlif : üzərində hərəkə olmazsa, özündən öncəki hərfin hərəkəsini "əlif" deyiləcək qədər uzadar və qalın hərflərdə uzun "a" incə hərflərdə isə uzun "ə" səsini verər. Bəzi sözlərdə əlifin (ا) yerinə vav (و) və yaxud yə (ى) də yazılır

بَلَى	كَانَ	عَفَا	قَالَ	أَلاَ
اَلْحَيَاةُ	رَمَى	صَلٰوةٌ	عَسَى	كَفَى

Vav (و): hərfi hərəkəziz yazıldığında özündən öncəki harf zamməli isə, onun hərəkəsini “əlif” deyiləcək qədər uzun "u" səsi kimi uzadar.

تَمُورُ	دُونَ	أَعُوذُ	نُودِيَ	قُولُوا
كَالِهُونَ	كُونُوا	نُوحٌ	تُوبُوا	شَاهِدُونَ

Yə (ي): hərfi hərəkəsiz yazıldığında, özündən öncəki hərf kəsrəli isə, onu “əlif” diyiləcək qədər uzun "i" kimi uzadar.

يُمِيتُ	رَبِّي	أَخِي	يَهْدِي	فِي
فِينَا	غَضَبِي	تَحِيدُ	دِينِي	قِيلَ

MƏD HƏRFLƏRİ

Kəlmənin sonunda yazılan "Vav-Əlif" (وا): Kəlmənin sonunda hərəkəsiz "vav" əksəriyyətlə "əlif"lə birlikdə yazılır. Ancaq "əlif"in olması oxunuşa təsir etməz, "vav" öncəki hərfin zamməsini bir əlif miqdarı uzadar.

إِذْهَبُوا	أُدْعُوا	أُمِرُوا	يَتْلُو	رُزِقُوا
كَذَّبُوا	نَقَمُوا	أَلْقُوا	يَنَالُ	كَانُوا

Uzatma fəthəsi (ـٰ): Dik yazılan fəthəyə bu ad verilir. Bəzi kəlimələrdə məd hərfləri olmasa da hərfin üstüdə yazılan uzatma fəthəsidən ötrü həmən hərf bir əlif miqdarı uzadılaraq uzun "ə" və ya "a" kimi oxunur.

هٰذِهِ	طُوبٰى	مُوسٰى	اَلصَّلٰوةُ	إِلٰهٌ
فَاتَتْ	أَتيٰهُمْ	حَتّٰى	طٰهٰ	اِسْحٰقَ

Uzatma kəsrəsi (ـِ) Dik yazılan kəsrə belə adlanır. Məd hərflərindən "yə" olmasa da hər hansısa bir hərfin altında yazılan dik şəklindəki kəsrə işarəti uzun "i" kimi oxunur.

أُغْنِي	جَنَّتِي	عَنِّي	أَبِي	بِهِ
كُتُبِهِ	أُمْلِي	يُنْجِيهِ	نُوحِيهِ	بَعْدِهِ

MƏD HƏRFLƏRİ

Uzun mədd (ـٓ) üzərində yazılan hərfi, üç və dörd əlif miqdarı uzatdar.

دَآبَّةً	اَوْلِيَآءَ	قَآئِمَةٌ	يَشَآءُ	جَآءَ
طَآئِفَةٌ	شُهَدَآءَ	اَعْدَآءُ	مَلٰٓئِكَةٌ	اَبْنَآؤُكُمْ

"HƏ"-nin OXUNUŞU

Kəlimənin sonunda gələn "Hə"-nin(ـه) oxunuş qaydası: Kəlmənin sonunda gələn "hə"-nin özünə məxsus oxunuş qaydası vardır.

1- "Hə"-nin (ـهُ) hərəkəsi zammə isə "hə"-dən sonra məd hərflərindən vav hərfi varmış kimi uzadılaraq oxunur.

لَعَلَّهُ	أَيَّدَهُ	لَهُ	قَمِيصُهُ	رُسُلَهُ

2- Hə-nin (ـهِ) hərəkəsi kəsrə isə, "hə"-dən sonra məd harflərindən "yə" varmış kimi uzadılaraq oxunur; bəzi hallarda "hə"-nin altına uzatma kəsrəsi də yazılır.

خَيْرِهٖ	مِنْ خَلْفِهٖ	بِرِزْقِهٖ	حِسَابِهٖ	كُتُبِهٖ

3- Hə hərfinin uzadılmadığı hallar: Kəlimənin sonunda gələn "hə" hərfindən öncəki hərf cəzimlidirsə və yaxud üzərində hərəkə olmayan mədd hərfidirsə "hə" adi qaydada oxunar.

عَلِمَتْهُ	شَرَوْهُ	يَهْدِيهِ	عَقَلُوهُ	اِلَيْهِ

"ƏL" ARTİKLI (ال)

"ƏL" (ال) Artiklı: Ərəb dilində ümumi isimləri xüsusi ismə çevirən müəyyənlik artiklıdır. Kəlmələrin başında yazılır. Özündən sonra gələn hərfin xüsusiyyətinə görə bəzən oxunur, bəzən də oxunmur.

اَلْجَمِيلُ	اَلْكِتَابُ	وَالْحَمْدُ	اَلْوِرْدُ	اَلْوَهَّابُ
اَلْفَاتِحُ	اَلْخَيْرُ	اَلْبَعْثُ	اَلْفَجْرُ	وَالْجِسْمُ
اَلْغَنِيُّ	اَلْغَيْثُ	اَلْخَبَرُ	اَلْحَكِيمُ	

ا، ب ج ح خ ع غ ف ق ك م و هـ ي

1- Əgər "Əlif Lam" yuxarıda qeyd olunan 14 hərfdən öncə gələrsə "Əlif-lam" artiklı "əl" kimi oxunar, anacaq öncəki kəlimənin son hərfi hərəkəlidirsə "əlif" hərfi oxunmaz, "ləm"- lə birləşdirərək iki söz birlikdə oxunar .

اَلثَّوْبُ	اَلرَّحِيمُ	وَالشَّمْسِ	فَالضَّمُّ	اَلصَّلَاةُ
اَلضَّعْفُ	كَالطَّيْرِ	اَلطُّورُ	كَالزَّيْتُونِ	بِالسَّاهِرَةِ
اَلظِّلَالُ	وَالضُّحَى	اَلذُّلُّ	عَنِ الطَّلَاقِ	فِي الثَّرَى

ن ل ظ ط ض ص ش س ز ر ذ د ث ت

2- Əgər "Əlif-Lam" artiklı yuxarıda qeyd olunan 14 hərfdən öncə gələrsə o zaman sadəcə "əlif" hərfi oxunar, anacaq ondan da öncəki hərf hərəkəlidirsə əlif də oxunmaz və iki söz birləşdirilərək oxunar.

Hurufu-Müqattaa

Uca kitabımız Qurani-Kərimdə 114 surə vardır. Bu surələrdən 29-unun başında bir-birindən ayrılmış mənasına gələn müqattaa hərfləri vardır. Bəzi hərflərin üzərində təbii məd (.ا..) və bəzilərində də uzun mədd(.....) işarələri olan hərflər yer almaqdadır. Üzərində məddi-təbii hərəkəsi olanlar olduğu kimi, uzun məd hərəkəsi olanlar isə uzadılaraq oxunar. Müqattaa hərfləri oxunarkən hərfin adı söylənilir.

كٓهٰيٰعٓصٓ	الٓرٰ
الٓمٓ	حٰمٓ
حٰمٓ عٓسٓقٓ	نٓ
الٓمٓصٓ	طٰهٰ
طٰسٓمٓ	يٰسٓ

Peyğəmbərimiz (s.ə.s.): Quranı çətin də olsa, kəkələyərək oxuyana iki qat savab veriləcəyini söyləmişdir. Bunun üçün ümidsizliyə düşməməli, çox çalışmalıyıq

ÇALIŞMA

Qurani-Kərimi düzgün oxumağı öyrənmək üçün çox çalışmalı və bir biləndən kömək almalıyıq.

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اُسْتُضْعِفُوا	تَثْقَفَنَّهُمْ	مَا تُقُبِّلَ مِنْهُمْ
يَشَّقَّقُ	وَمَا أَنْسَانِيهُ	يَسْتَخْلِفَكُمْ
خُطُوَاتِ الشَّيْطَانِ	مُسْتَأْخِرِينَ	أَسْتَغْفِرُ
وَلِيُمَحِّصَ	شِرْذِمَةٌ	مُعَطَّلَةٌ

رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً

Hər şeyin sahibi Rəbbimizə şükr olsun!

Qunud Duaları

اَللّٰهُمَّ اِنَّا نَسْتَعِينُكَ وَنَسْتَغْفِرُكَ وَنَسْتَهْدِيكَ. وَنُؤْمِنُ بِكَ
وَنَتُوبُ اِلَيْكَ. وَنَتَوَكَّلُ عَلَيْكَ. وَنُثْنِي عَلَيْكَ الْخَيْرَ كُلَّهُ
نَشْكُرُكَ وَلاَ نَكْفُرُكَ. وَنَخْلَعُ وَنَتْرُكُ مَنْ يَفْجُرُكَ

Allahım! Səndən yardım istəyir, günahlarımızı bağışlaman üçün yalvarırıq. Nə olar, bizi razi olduğun istiqamətə hidayət eylə. Sənə inanır, Sənə tövbə edir və Sənə güvənirik. Bizə verdiğin bütün nimətlərin çoxluğunu idrak edərək Səni mədh edərik. Şükrə layiq olan da Sənsən. Bütün verdiyin və verəcəyin nemətləri təqdir edir və nankorlardan da uzaq olduğumuzu etiraf edirik.

اَللّٰهُمَّ اِيَّاكَ نَعْبُدُ وَلَكَ نُصَلِّي وَنَسْجُدُ. وَاِلَيْكَ نَسْعَى
وَنَحْفِدُ. نَرْجُو رَحْمَتَكَ وَنَخْشَى عَذَابَكَ. اِنَّ عَذَابَكَ
بِالْكُفَّارِ مُلْحِقٌ.

Allahım! Yalnız Sənə qulluq edər, namazı Sənin rızan üçün qılar və ancaq Sənə səcdə edirik. Bütün səy və qeyrətimiz Sənədir və anacq Sənə yaxınlaşdıracaq əməlləri etməyə çalışırıq. Bu niyyətlə də ibadətlərimizi şövq ilə yerinə yetiririk. Rəhmətin ardı-arasının kəsilməməsini niyaz edir və çoxalmasını arzulayırıq. Əzabından da qorxarıq, çünki Sənin əzabın bilə-bilə haqqa-həqiqətə göz yumanlara və inanmayanlara isabət edər.